# MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ

## SƏFƏVİ VƏ MUĞAL DÖVLƏTLƏRİNİN ƏMƏKDAŞLIĞINDA TÜRK-İSLAM MƏDƏNİYYƏTİ VƏ SUFİ POEZİYASI

**Eynulla Mədətli**
Tarix elmləri doktoru
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Azərbaycan
E-mail: emadatli@gmail.com

*https://doi.org/10.59849/iscapltmt.2024.64*

**Xülasə.** XVI-XVIII əsrlərdə banisi Şah İsmayıl olan Azərbaycan Səfəvilər dövlətinin və Baburun Dehli və ətrafında yaratdığı Böyük Muğal dövlətinin siyasi, hərbi, ticarət münasibətləri ilə yanaşı, qarşılıqlı mədəni əlaqələrinin də əhəmiyyətli yer tutduğuna dair mənbələrdə məlumatlar diqqəti cəlb edir. Bu dövrdə Azərbaycanın görkəmli sufi mütəfəkkirlərinin, şairlərinin, o cümlədən Şəms Təbrizinin, Şihabəddin Sührəverdinin, Mahmud Şəbüstərinin, Nizami Gəncəvinin, İmadəddin Nəsiminin, Məhəmməd Füzulinin, Sahib Təbrizinin, həmçinin Azərbaycan musiqiçilərinin, rəssamlarının, memarlarının əsərləri Mərkəzi Asiyada olduğu kimi, Hindistan yarımadasının böyük əksəriyyətini təşkil edən Muğal dövlətində də məlum və yayğın idi.
Zəhirəddin Babur (1483-1530) ata tərəfdən Əmir Teymurun, ana tərəfdən Çingiz xanın nəslindən idi və qurub yaratdığı, təqribən beş il rəhbərlik etdiyi Böyük Muğal İmperatorluğunda həyata keçirdiyi sosial-iqtisadi və mədəni islahatlar sırasında ədəbiyyatın, eləcə də, bütövlükdə mədəniyyətin inkişafına xüsusi diqqət verirdi. Onun zamanında olduğu kimi, ondan sonrakı varisləri, xüsusilə də Humayun Şah, Böyük Əkbər Şah və digərləri Azərbaycandan, Türküstandan dəvət etdikləri tanınmış alimlərin, mədəniyyət və incəsənət adamlarının, şairlərin, filosofların, memarların fəaliyyətinə meydan açaraq Osmanlı və Səfəvi imperatorluqlarındakı kimi zəngin mədəniyyət mühiti yaratmağa çalışırdılar. Əkbər Şah dinlər və məzhəblərarası əlaqələrə önəm verərək türk-islam dünyasında xalqları ayıran yox, birləşdirən təmayülləri geniş yaymağa cəhd göstərirdi.
"Əkbərnamə"də də qeyd edildiyi kimi, Humayun Şahın oğlu Əkbər Şahın (1542-1605) sarayında şairlər, elm və din xadimləri müntəzəm toplantılar keçirirdilər. Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" mütaliə və qiraət olunan kitablar içərisində idi. Muğal sarayında Azərbaycandan olan şair və mütəfəkkirlərdən Sahib Təbrizi, Ruknəddin Məsihi, memar Ağa Mirək və bir çoxları, həmçinin Azərbaycanın və Türküstanın sufi filosoflarının davamçıları yerli məsləkdaşları ilə birlikdə dövrün mədəni mühitinə əhəmiyyətli təsir göstərirdilər.
**Açar sözlər:** Azərbaycan, Səfəvilər, Muğal dövləti, Babur, mədəniyyət, poeziya, ədəbi əlaqələr

## In the cooperation of the Safavi and Mughal states Turkish-Islamic culture and Sufi poetry

**Eynulla Madatli**
Doctor of Historical sciences
Institute of Philosophy and Sociology of ANAS, Azerbaijan
E-mail: emadatli@gmail.com

**Abstract.** In the 16th-18th centuries, the Safavid state of Azerbaijan, whose founder is Shah Ismail, and the Great Mughal state created by Zahiruddin Babur in and around Delhi, in addition to the political, military, and commercial relations, draw attention to the the mutual cultural relations. In

this period, the works of prominent Sufi thinkers and poets of Azerbaijan, including Shams Tabrizi, Shihabaddin Suhraverdi, Mahmoud Shabustari, Nizami Ganjavi, Imadaddin Nasimi, Muhammad Fuzuli, Sahib Tabrizi, as well as Azerbaijani musicians, artists, and architects, made up the vast majority of the Indian peninsula.
Zahiruddin Babur (1483-1530) was a descendant of Amir Teymur on his father's side and Genghis Khan on his mother's side, and he paid special attention to the development of literature, as well as culture as a whole, during the socio-economic and cultural reforms he established and implemented in the Great Mughal Empire, which he led for about five years. As in his time, his successors after him, especially Humayun Shah, Akbar Shah and others, challenged the activities of well-known scientists, cultural and artistic people, poets, philosophers, and architects whom they invited from Azerbaijan and Turkestan, and tried to create a rich cultural environment like in the Ottoman and Safavid empires. Akbar Shah, giving importance to inter-religious and inter-sectarian relations, tried to spread widely the tendencies that unite and not separate peoples in the Turkish-Islamic world.
Continuing the tradition of Emir Temur, Babur supported the development of science, culture, and art, and showed special interest in poetry and literature. "Baburnama", which he wrote in Jagatai Turkish, is one of the rare chronicles that reflects the social-political-military landscape of the time, as well as the cultural relations between the Turkish-Islamic peoples at that time.
As mentioned in "Akbarnama", poets, scientists and religious figures held regular gatherings in the palace of Humayun Shah's son Akbar Shah (1542-1605). Nasiruddin Tusi's "Akhlaqi-Nasiri" was among the books read and recited. Among the poets and thinkers from Azerbaijan, Sahib Tabrizi, Ruknaddin Masih, architect Agha Mirak and many others, as well as followers of the Sufi philosophers of Azerbaijan and Turkestan, together with their local colleagues, had a significant impact on the cultural environment of the time in the Mughal court.
**Keywords:** Azerbaijan, Safavids, Mughal state, Babur, culture, poetry, literary relations

Tarixin bütün dövrlərində Azərbaycan mədəniyyəti, həmçinin ədəbiyyatı, incəsənəti, fəlsəfəsi Türküstanın, bütövlükdə Mərkəzi Asiyanın mədəniyyətinin ayrılmaz hissəsi olmuşdur. Şimalla Cənub, Şərqlə Qərb arasında mühüm ticarət yollarının kəsişməsində yerləşən və əlverişli iqlim və təbiətinə görə burada müxtəlif mədəniyyətlərin də bir-biri ilə qarşılıqlı əlaqəsi üçün münbit şərait olmuşdur. Bu əlaqələrin formalaşmasında və əsrlərlə davam etməsində, əlbəttə, müştərək islam dininin, həmçinin orta əsrlərdə bu coğrafiyada geniş yayılan sufizmin əhəmiyyətli təsiri olmuşdur.

Qeyd edilməlidir ki, Azərbaycan – Pakistan siyasi və mədəni əlaqələrinin qədim, zəngin, təbii-tarixi kökləri vardır. Məlumdur ki, Pakistan bir dövlət kimi 1947-ci ildə Hindistan yarımadasında Britaniyanın burada müstəmləkəçilik siyasətinin başa çatması və bu bölgədə Hindistan və Pakistan adlanan iki dövlətin formalaşdırılması ilə yaranmışdır. Qeyd edilməlidir ki, bu coğrafiyada yaşayan pəncablıların, sindlərin, beluclarin, kəşmirlilərin, puştuların, həmçinin urdu dilində danışan yerli və türk-fars-ərəb mənşəli əhalinin – indiki adla desək bütöv Pakistan xalqının biz türklərlə çox qədim tarixi əlaqələri olub.

**Tarixi əlaqələrə qısa baxış**

Bizim eradan əvvəl 1-ci əsrdən eramızın 3-cü əsri də daxil olmaqla Pakistan və bütün Türküstan, yəni bizim region və indiki Mərkəzi Asiyadakı türk cümhuriyyətlərinin yerləşdiyi ərazi Kuşan imperatorluğunun tərkibində idilər. 4-cü əsrdə indiki Pakistanın Pəncab və Sind əyalətlərində türklərin ulu babalarından sayılan hunlar, əsasən də ağ hunlar hakim idilər. 7-ci əsrin ortalarından sonra həm bizim coğrafiyada, həm də Hind yarımadasında ərəblər islam dinini yaymağa başladılar. Xilafət ordusunun komandanı Məhəmməd ben Qasımın VIII əsrin əvvəllərində indiki Pakistan ərazisinə daxil olması ilə yarımqitə adlandırılan Hindistan yarımadasında yeni dini-mənəvi mənzərə formalaşmağa başladı. İslamın gəlişi ilə bu ərazilərdə digər bölgələrdəki islam dövlətləri və xalqları ilə geniş ticarət-iqtisadi və mədəni əlaqələr quruldu, tədricən ortaq mədəniyyət formalaşmağa başladı.

Mədəni əlaqələrin inkişafında yazıda xalqlarımızın ortaq ərəb əlifbasından, ünsiyyət və idarəçilikdə isə türk, fars və urdu dilindən istifadə etməsi də əhəmiyyətli rol oynamışdır [4, s.27-32].

Xilafət zəifləyəndən sonra ayrı-ayrı ərazilərdə yeni müstəqil dövlətlər yaranmağa başladı. Azərbaycanda, Anadoluda, İranda, əsasən, türk sülalələrinin qurduqları dövlətlər bir-birini əvəz etməyə başladı. Belə bir şəraitdə Mərkəzi Asiyada Sultan Mahmud Qəznəvinin başçılığı ilə Qəznəvilər dövləti (963-1186) yarandı. Uzun illər indiki Pakistan ərazisi və yaxın ətrafı bu türk dövlətinin tərkibində oldu. Hətta Pakistanın ikinci böyük şəhəri, siyasi-mədəni mərkəzi olan Lahor şəhəri təxminən 35 il həmin dövlətin paytaxtı idi. Beləliklə, bu coğrafiyada türk elementi bu dövrdə kök salmağa və yayılmağa başladı. Sonrakı dövrlərdə Qurilərin (1100-1215), ardınca Dehli sultanlığının (XIII-XIV əsrlər) hakimiyyəti, XIV əsrin sonlarında isə Əmir Teymurun yürüşləri (1399) də bu regionda türk amilini daha da gücləndirdi və təsirli etdi.

1501-ci idə Şah İsmayılın başçılığı ilə Azərbaycanın Səfəvilər dövləti (1501-1736) yarandı. Çox keçmədən bu dövlət Azərbaycan hüdudlarını aşaraq böyük imperiyaya çevrildi. Belə bir zamanda Şərqdə Böyük Muğal İmperatorluğu (1525-1858) yaranırdı. Buna Azərbaycan ədəbiyyatında Moğol da deyirlər. Bu dövləti quran Zəhiruddin Babur (1483-1530; hakimiyyəti 1526-1530) da türk idi. Babur indiki Özbəkistanın Əndican şəhərində anadan olmuşdur, ata tərəfdən Əmir Teymurun (1336-1405), ana tərəfdən Çingiz xanın (1162-1227) nəslindəndir.

Atası Ömər Şeyx Mirzənin qəfil ölümündən sonra 12 iyun 1494-cü ildə Fərqanə taxtına sahib olan Babur az sonra Səmərqəndi də ələ keçirmiş, lakin Əndicandakı qiyamla əlaqədar yürüşə başladıqda Səmərqəndi də itirmiş, Əndicana da daxil ola bilməmişdi. 1504-cü ildə hakimiyyətdən uzaqlaşdırılan Babur Kabula gələrək şəhərə sahib olmuş və hakimiyyətini burada möhkəmləndirməyə başlamışdır.

Azərbaycan Səfəvilər dövlətinin hökmdarı Şah İsmayıl (1487-1524) 1510-cu ildə özbək hökmdarı Şeybani xanla Mərv yaxınlığındakı döyüşdə rəqibini məğlubiyyətə uğradıb xeyli əsir götürdüyü zaman məlum olmuşdu ki, əsirlərin arasında Baburun bacısı, Şeybani xanın Baburu məğlub etdiyi zaman əsir alıb sonra evləndiyi Xanzadə bəyim də vardır. Şah İsmayıl onu etibarlı adamları ilə böyük ehtiramla Baburun qərargahına göndərmişdi. Şah İsmayıl həm özünün, həm də Baburun əsas rəqibi olan Məhəmməd Şeybani xanı və onun yaxın çevrəsindəki əmirlərini döyüşdə məhv etməklə, əslində Baburun gələcək hakimiyyət uğrundakı mübarizəsinə də geniş yol açmışdı [5, s.223].

Bu hadisədən sonra Baburla Şah İsmayılın müttəfiqliyi və dostluğu daha da möhkəmləndi. Bu dostluq onların siyasi varisləri tərəfindən davam etdirildi və Şərqin bu iki qüdrətli imperatorluğu arasında hərdən maraqların toqquşduğu vaxtlar olsa da, heç vaxt hərbi qarşıdurmaya gətirən hallar baş vermədi. Şah İsmayılla müttəfiqlik və ondan hər zaman hərbi-siyasi dəstək görməsi Baburun siyasi taleyində əhəmiyyətli rol oynadı. Babur 1525-ci ildə Dehliyə hücum etdi və Panipat döyüşündə Dehli hakimi Sultan İbrahim xan Lodini məğlubiyyətə uğradaraq Muğal dövlətinin yarandığını elan etdi [6, s.192].

Yarandığı gündən Səfəvilər dövləti ilə də həm diplomatik, həm də dostluq səviyyəsində sıx əlaqələr quruldu. Babur Səfəvilərə etibar etdiyindən varisi Humayunun təlim-tərbiyəsini qızılbaş Baharlı tayfasından olan Bayram bəy Baharlıya həvalə etmişdi.

1530-cu ildə Baburun qəfildən ölümü ilə oğlu Nəsiruddin Məhəmməd Humayun (hakimiyyət illəri 1530-1540; 1555-1556) taxta çıxdı. 10 ildən sonra əfqanlar ona qarşı üsyan qaldırıb taxtdan saldılar. Humayun ailəsi və yaxın adamları ilə birgə Təbrizə – Səfəvi sarayına pənah gətirdi. O zaman Şah İsmayılın oğlu Şah Təhmasib (1514-1576) hakimiyyətdə idi. O, Humayunu çox böyük ehtiramla qarşıladı. Humayun 15 il Səfəvi sarayının himayəsində qaldı. Bu dövrdə Humayun zəngin Azərbaycan ədəbiyyatı, təsviri sənəti, musiqisi ilə dərindən maraqlanırdı. Deyilənə görə, Azərbaycanın məşhur muğamı "Humayun" da ona həsr edilibmiş.

1555-ci ildə Şah Təhmasib Azərbaycan türklərindən ibarət on iki minlik qızılbaş ordusunu Budaq xan Qacar və Şahverdi bəy Ustaclının başçılığı ilə onun ixtiyarına verdi. Bu qoşunla Humayun

Dehliyə hücum edib onu taxtdan salan əfqanları məğlub edərək yenidən şahlıq taxtına sahib oldu. Bu əvəzsiz yardımın müqabilində Humayun şah illik gəliri ildə 40 min tümən olan Qəndəhar şəhərini Səfəvi dövlətinə güzəşt etdi [2, s.266].

Bir sözlə, Pakistanın tarixinin ən şanlı və parlaq dövrü Muğal İmperatorluğu ilə əlaqədardır. Amma Azərbaycanın tarixi dövləti olan Səfəvilərin köməyi olmasaydı, Muğal İmperatorluğunun bərpa edilməsi, yəqin ki, mümkün olmayacaq və bu sülalə hakimiyyəti elə Humayunun on illik hakimiyyəti ilə başa çatacaqdı. Bu dostluq əlaqələri eyni etnik köklərdən, siyasi-dini əlaqələrdən, mədəni-mənəvi yaxınlıqdan qaynaqlanırdı. Əlbəttə, dövlətlərarası münasibətlərdə qarşılıqlı maraqlar da əhəmiyyətli rola malik idi və bu da əsasən, nəzərə alınırdı.

Humayun Təbrizdə olarkən Azərbaycan mədəniyyətinə, ədəbiyyatına o qədər vurulmuşdu ki, vətəninə qayıdandan sonra yüzlərlə Azərbaycan incəsənət adamını, memarını, xəttatını, miniatürçülərini ölkəsinə dəvət etdi, onlar indiki Pakistan və Hindistana mənsub olan böyük bir ərazidə çox mühüm işlər gördülər. Onun xanımı, gələcək varisi Əkbər şahın anası Həmidə Banu Bəyim də Azərbaycan mədəniyyətinin pərəstişkarı idi.

Qohum xalqlarımızın ortaq islam mədəniyyətinin formalaşmasına və inkişafına nəzər salsaq, görərik ki, Asiya, Afrika və Avropanın geniş coğrafiyasında İslam dini yayıldıqca bu dinin müxtəlif təriqətləri də meydana gəlirdi və öz ətrafına minlərlə tərəfdar cəmləyirdi. Məsələn, Azərbaycanda sufizm məktəbi çox güclü idi. Şihabəddin Ömər Sühraverdinin (1145-1234) dini-fəlsəfi baxışları və digər sufi ideyaları Hindistan yarımadasında da geniş yayılırdı.

Azərbaycanın Zəncan əyalətində doğulan, Bağdadda Nizamiyyə Universitetində (mədrəsə adlandırılsa da) yüksək təhsil alan Ş.Ö.Sühraverdinin adı ilə yayılan "sührəveriyyə" təlimi Hindistan yarımadasında sufi qardaşlığını geniş təbliğ edirdi. Sührəverdinin Hindistan yarımadasında tanınmış müridlərindən olan Nurəddin Mubaraq Qəznəvi sufizm ideyalarının yayılmasında fəal çalışırdı [3, s.151].

Sufiliyin məşhur simalarından olan olan Şəms Təbrizinin (1185-1248) yarımadada çoxlu tərəfdarları var idi. Şəmsin bir məqbərəsi Konyada – Mövlana Cəlaləddin Ruminin (1207-1273) məqbərəsinin yanında, biri Cənubi Azərbaycanın (İran) Xoy şəhərində, biri də Pakistanın Multan şəhərindədir. Burada kiçik bir haşiyə çıxmaq istərdim. Mən Pakistanda işləyərkən, təbii ki, ölkəyə daha yaxından bələd olmaq üçün mümkün olan bütün bölgələrə səfər edirdim və Multan şəhərində də oldum. Çünki Multanla bizim ölkəni bağlayan başqa əlaqələr də vardı. Hələ XV-XVI əsrlərdən Multan Şəms Təbrizinin məqbərəsini ziyarət eləyəndə orada yüzdən çox dərviş gördüm. Hamısı Şəmsi ziyarətə gəlmişdilər. Zahiri gözəlliklə batini paklığı özündə birləşdirən Şəms haqlı olaraq müridləri tərəfindən "Mürşüdül-cəmil" adlandırılırdı. Bir çoxumuz dərvişləri folklordan, ədəbiyyatdan tanıyırıq. Amma Şəmsi ziyarətə gələnlər geyimləri, saçları, çiyinlərindəki heybələriylə tipik, real həyatdakı dərvişlər idilər. Onlar dizin-dizin Şəmsin məqbərəsinə yaxınlaşır, ətrafına dolanırdılar. Yəni Şəmsin məqbərəsi Pakistanda indi də sufi dərvişlərinin ibadət yeridir.

Eləcə də Azərbaycanın digər şairləri, filosofları, elm adamları Hind yarımadasında tanınırdı, sevilirdi. Türk əsilli böyük Hindistan şairi Əmir Xosrov Dəhləvi (1253-1325) Nizami Gəncəvinin "Xəmsə"sindən ilham alaraq "Xəmsə" yaratmışdı. Sufi mütəfəkkir və şairlərinin təsiri ilə Dehlidə 1430-1435-ci illərdə şair Nizami Dakani o zaman artıq formalaşmış urdu dilində "Kadam Rao, Padam Rao" məsnəvisini yazmışdı. Sufizmin çiştiyyə qoluna mənsub olan Mövlana Davud Əmir Xosrovun əsərlərindən ilhamlanaraq "Kadayan" əsərini yazmışdı.

Muğal imperatorluğunun ən qüdrətli hökmdarı, Baburun nəvəsi, Humayunun oğlu Məhəmməd Cəlaləddin Əkbər Şahın (1542-1605) sarayında onun əmri ilə müntəzəm keçirilən səsli qiraətlərdə, eləcə də mədrəsələrdə böyük Azərbaycan mütəfəkkiri Nəsirəddin Tusinin (1201-1274) "Əxlaqi Nasiri" əsəri oxudulur və tədris edilirdi. Əkbər Şahın hələ gənc yaşlarından istedadlı sərkərdə, ağıllı və uzaqgörən dövlət adamı olduğu hind tədqiqatçılarının əsərlərində dəfələrlə vurğulanmışdır [7, s.53].

**Muğal sarayında Azərbaycan şairləri və sənətkarları**

XVII əsrdə yaşamış Azərbaycan şairi, alimi **Saib Təbrizi** 1630-cu ildə Muğal İmperatoru Şah Cahanın (Şəhabəddin Məhəmməd Xürrəm – 1592-1666, şahlıq dövrü – 1628-1658) sarayına dəvət olunmuşdu, şahın ailəsi, övladları tərəfindən hüsn-rəğbətlə qəbul edilir, sevilirdi. Onun epik poemaları, qəsidələri, xüsusilə "Qəndəharnamə" əsəri geniş yayılmışdı.

Yeri gəlmişkən, Şah Cahanın vaxtsız vəfat etmiş həyat yoldaşı Mümtaz Mahal xanımın xatirəsinə inşa etdirdiyi və dünyanın yeddi möcüzələrindən sayılan Tac Mahal məqbərəsinin də qurucusu türk memarı Məhəmməd İsa Əfəndi idi. 1630-cu ildə inşası başlanan bu möhtəşəm məqbərənin tikintisi 1652-ci ildə başa çatdırıldı.

Azərbaycanın görkəmli şair və həkimi **Ruqnəddin Məsihi (Doktor Ruqna)** Muğal İmperatorları Əkbər Şahın (Cəlaləddin Məhəmməd Əkbər – 1542-1605), ondan sonra Cahangir Şahın (Nurəddin Məhəmməd Səlim – 1569-1627, hakimiyyəti (1605-1627) sarayında şahın şəxsi həkimi idi. Məsihi eyni zamanda yaradıcılıqla da məşğul olurdu. Onun "Vərqa və Gülşa" əsəri Azərbaycanda olduğu kimi, digər Şərq ölkələrində də sevilirdi. Onun "Divan"ı ölümündən sonra Sahib Təbrizi tərəfindən tamamlandı. Məsihinin Sahib Təbrizi ilə dostluğu məhz Hindistanda başlamışdı. Məsihi Benqalda məşhur "Burxan-e qatı" lüğətinin müəllifi Hüseyn ibn Kalar Burxan Təbrizi ilə görüşmüşdü [2, s.295].

Humayunun Təbrizdən Dehliyə gedərkən özüylə apardığı sənətkarlardan biri Azərbaycan türkü **memar Ağa Mirək** idi. Humayunun xanımı Həmidə bəyim Təbrizdən bir sıra sənətkarlar, ustalar aparmışdı. Humayun vəfat edəndə Ağa Mirək Humayuna möhtəşəm bir məqbərə inşa etdi. Dehlidə 8 il ərzində inşa edilən və 1573-cü ildə başa çatdırılan həmin məşhur məqbərə indi də göz oxşayır. Böyük Muğal İmperatorluğunun sonuncu şahı və böyük şairi Bahadur Şah Zəfər 1858-ci ildə Britaniya müstəmləkəçilərinə qarşı başlanan ümumxalq üsyanı amansızlıqla yatırılandan sonra ailəsilə bərabər həmin məqbərəyə sığındı ki, ingilislər onlara aman versinlər. Amma ingilislər onlara rəhm etmədilər, onun övladları öldürüldü, özü isə sürgün edildi, bir neçə ildən sonra Birmada vəfat etdi [2, s.267].

Humayunun sarayına Azərbaycandan dəvət etdiyi rəssamlar içərisində Mir Seyid Əli Behzad, Sultan Məhəmməd Ağa Mirək məktəbinin istedadlı yetirməsi idi, onun burada 30-dan çox rəssamı birləşdirən heyəti var idi. Onun Əmir Teymura həsr etdiyi "Teymurun evi" tablosu Humayunun sarayını bəzəyirdi. 16 kitabdan ibarət olan "Əmir Həmzə" kitablarında həmin rəssamların yüzlərlə minatürü yer alırdı. Mir Seyid Əlinin o zaman çəkdiyi minatürlərin bəziləri ABŞ və Avropa müzeylərində yer almışdır.

14-15-ci əsrlərdə o vaxtkı İpək yolu ilə müsəlmanlar və hinduslardan ibarət Hindistan tacirləri Multan şəhərindən gəlib Bakıda alış-veriş edir, burdan da keçib Avropaya gedirdilər. Gəliş-gediş o qədər genişlənmişdi ki, Bakı hakimi onlar üçün ayrıca karvansara tikdirməli oldu. İndiki bizim İçərişəhərdəki Multan sarayı adlandırılan Karvansaray həmin dövrün abidəsidir. Multan tacirləri və onlarla səyahət edənlərin danışdıqları dili Bakıda xalq elə "moltanı" adlandırırdı. Çətin anlaşılan dilin xalq arasında "moltanı" adlandırılmasına son vaxtlaradək təsadüf edilirdi.

Bu cür əlaqələr o qədər sıx idi ki, xalqlarası ticari-mədəni əlaqələr böyük bir coğrafiyanı əhatə edirdi, hətta bəlkə də o zaman indi bizim "qloballaşma" adlandırdığımız proses indikindən də üstün idi. Çünki Səlcuqlar dövründən başlanan, Hülakülərin, Əmir Teymurun hakimiyyətləri zamanı daha da bərqərar olan qaydalar ticarətə, xəbərləşməyə əlverişli şərait yaradırdı ki, bu da öz növbəsində ayrı-ayrı xalqların mədəni əlaqələrini, mədəniyyətlərin təmas və qarşılıqlı zənginləşməsini təmin edirdi.

Beləliklə, Pakistan xalqının formalaşmasında, etnik mənzərəsində, mənəviyyatında psixologiyasında kökü qədim keçmişlərə dayanan zəmin olmuşdur, belə ki, burada türk mənsubiyyəti qədim zamanlardan mövcud olmuş, xüsusən də Xilafət zamanında, sonralar isə X-XII əsrlərdə Qəznəvilər, XIII-XIV əsrlərdə Dehli Sultanlığı, XVI-XVIII əsrlərdə Muğal imperatorluğu zamanlarında hər vaxt

var olmuş və hüsn-rəğbət qazanmışdır. Şah Təhmasibin zamanında Humayunla birgə Hindistana gedən 12 min nəfər qızılbaş əsgərinin böyük qismi geri qayıtmamışdı, orada məskunlaşmışdılar. Bu gün Pakistanda minlərlə insanın soyadının "Qızılbaş", "Təbrizli", "Şirvanlı", "Şirvani", "Naxçıvani, "Bektaşi" olması təsadüfi deyildir. Kim hardan gedibsə, öz ata yurdunun adını da özü ilə aparıb və bu adların çoxu bu gün rast gəlinən soyadlarda yaşayır. Pakistanda yüz minlərlə insanın adında "Mirzə", "Xan", "Şah", "Bəy","Bəyim" sözləri var. Onların hamısı ya türk, ya da türk-fars qarışıq Azərbaycan, İran əsillidirlər. Bu cür misalları çox uzatmaq olar. Bizimlə pakistanlılar arasında tarixən formalaşan mənəvi-etnik yaxınlıq var. Qeyd edilməlidir ki, hansı etnik kimliyə malik olmasından asılı olmayaraq "Azərbaycan" sözü hər bir pakistanlıda təbii hüsn-rəğbət doğurur, belə ki, ölkənin dövlət dili olan urducada "Bhay can"qardaşcan anlamındadır və ölkəmizin adı "Azər qardaş can" mənasını ifadə edir.

XIX əsrin axırlarında bütün müsəlman aləmində bir oyanış hərəkatı başlamışdı. Maarifçilik zəminində genişlənən bu oyanış islam dünyasının bir çox ölkələrini əhatə edirdi və bu həmrəyliyin zəruriliyini önə çəkməklə müsəlmanların qanuni haqqlarının əldə edilməsi sahəsində bir sıra görkəmli ziyalılar, mütəfəkkirlər tərəfindən fədakarlıqla işlər aparılırdı. Bəzi müsəlman ölkələrində, xüsusən Osmanlı dövlətində, Azərbaycanda bir sıra fikir adamları yalnız özlərini yox, bütün islam dünyasını düşünürdülər. Məsələn, Cənubi Azərbaycanda doğulan, İran ictimai mühitində pərvəriş tapan Cəmaləddin Əfqani (1838-1897) bütün islam dünyasının inkişafı və tərəqqisi üçün çalışırdı. Azərbaycanın böyük mütəfəkkiri Mirzə Fətəli Axundov türk əsilli İran şahzadəsinin türk əsilli Hindistan şahzadəsi ilə məktublaşması üzərində qurduğu "Kəmallüddövlə məktubları"nı heç də təsadüfən seçməmişdi. Müstəmləkəçiliyə, despotizmə, dini fanatizmə və cəhalətə qarşı mübarizə bütün müsəlmanların, xüsusilə qohum xalqların ortaq mübarizəsi idi.

XX əsrin əvvəllərində Azərbaycan mətbuatı İran, Hindistan, Əfqanıstan və ərəb ölkələrinin də problemlərini işıqlandırırdı. Yaxud XX əsrin əvvəllərində Cəlil Məmmədquluzadənin "Molla Nəsrəddin" jurnalının Hindistanda onlarla abunəçisi vardı, burada Britaniya müstəmləkəçiliyinə qarşı Hindistan xalqının (əlbəttə, müsəlmanların və hindlilərin birlikdə – E.M.) mübarizəsinə, həmin bölgədə gedən proseslərə dair vaxtaşırı məlumatlar verirdi. Məsələn, jurnalın 1907-ci il saylarından birində dərc edilmiş "Hindli və ingilis" karikaturalarının qayəsi bu idi ki, gün gələcək müstəmləkə zənciri qırılacaq, bu gün hindlini at kimi minən müstəmləkəçi özü həmin atın ayaqları altına düşəcəkdir. Tarix 40 ildən sonra "Molla Nəsrəddin"in bu öngörüsünü təsdiqlədi.

O vaxt Hindistan yarımadasında bir sıra yoluxucu xəstəliklər baş alıb gedirdi. Bu, faktdır. Azərbaycanın görkəmli maarifçı sahibkarı Hacı Zeynalabdin Tağıyev öz hesabına peyvənd üçün çox böyük vəsait xərcləyib Hindistan müsəlmanlarının dəhşətli vəba xəstəliyindən nicat tapmasında xüsusi qeyrət göstərmiş, üç yüz min ampula vaksin alaraq göndərmişdi. Eyni proses Osmanlı imperiyasında da gedirdi, Sultan Əbdülhəmid Hindistan müsəlmanlarının da xəlifəsi sayılırdı və Osmanlı dövləti də da bu vəziyyətlə bağlı müsəlmanlara kömək göstərirdi.

Xalqlarımız arasında münasibətlər Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğalı ilə qırılsa da, sonralar məhdud şəkildə olsa da, mədəni əlaqələrın yaranması müşahidə edilirdi.

Təməli Ulu öndər tərəfindən qoyulmuş dostluq münasibətləri Prezident İlham Əliyevin zamanında daha da yüksək səviyyəyə qalxdı. Bu proseslərin müəyyən mərhələsində yaxından iştirak etmək bu sətirlərin müəllifinə nəsib oldu.

Müstəqillik illərində Pakistanda Azərbaycan xalqına qarşı hüsn-rəğbət ilbəil daha çox artdı. Qeyd etmək lazımdır ki, iş elə gətirib ki, Pakistanda ötən illərdə prezidentlər, baş nazirlər bir-birinin tam əksi olublar və bir-birinə qarşı kəskin ziddiyyətlər şəraitində hakimiyyətə gəliblər, hakimiyyətdən gediblər. Amma buna baxmayaraq, onların hamısı Azərbaycanı dəstəkləyib və eyni dostluq və həmrəylik nümayiş etdiriblər. Bu münasibət qırılmaz bağ kimi bu gün də davam edir. Deməli,

ölkələrimiz arasındakı münasibətlər cari siyasət, yaxud keçici faydalar üzərində qurulmamışdır. Bu əsil dostluq və qardaşlıq əlaqələrinin bariz təzahürüdür.

Akademik İsa Həbibbəyli yazır: "Pakistan Cənubi Şərqi Asiya ilə Orta Asiya arasında spesifik bir mədəniyyət və ədəbiyyat yaratmış ölkədir. Orta Asiya türk sivilizasiyası ilə Cənub Şərqi Asiya müsəlman intibahının ən mühüm ənənələrini yaradıcı şəkildə sintez etməklə, həmin mədəni dəyərlərin ölkə daxilində mövcud olan xalqların mədəniyyətləri ilə qaynayıb-qarışmasına nail olmaq vahid Pakistan mədəniyyətinin mahiyyətini müəyyən edir. Daha doğrusu, qədim və köklü ənənələrə malik yerli mədəniyyətlərlə türk-islam sivilizasiyasının inteqrasiyası bənzərsiz Pakistan mədəniyyətini meydana çıxarmışdır. Bu mənada Pakistan Anadolu və Qafqazdan Orta Asiya və Hindistana qədərki mədəniyyətlər arasında möhkəm və davamlı bir körpü funksiyasını şərəflə və məsuliyyətlə yerinə yetirir" [1, s.5].

Bütün bunlar hamısı həm tarixdir, həm də bu günümüzün reallığıdır. Prezident İlham Əliyevin illər boyu Pakistanla apardığı dostluq və əməkdaşlıq siyasəti bu gün öz bəhrəsini verir. Azərbaycan, Türkiyə və Pakistan üç qardaş dövlət və xalq olaraq yaxın-uzaq ölkələrə Pakistanda deyildiyi kimi, "bir millət, üç dövlət" olmağın real nümunəsini nümayiş etdirirlər. Bu siyasi münasibət mədəni əlaqələrimizin də daha yüksək səviyyəyə qaldırılmasını tələb edir.

## Ədəbiyyat

1. Həbibbəyli, İ. Azərbaycan-Pakistan ədəbi-mədəni əlaqələri: tarixi ənənələr, müasir inkişaf və perspektivlər. "Dünya ədəbiyyatı-Pakistan", 1/2021.
2. Qajar, Ch. The famous sons of ancient and medieval Azerbaijan. Proofreading by Catherine Dobson (USA).
3. Madatli, E. Medieval culture of Azerbaijan and its influences in Iran, Afghanistan, Pakistan and India. Pakistan Journal of History and Culture, July-December 2007, Vol.XXVIII, No.2.
4. Mədətli, E. Pakistan: qısa tarixi-siyasi oçerklər. – Bakı: Turxan, 2022.
5. Nəcəfli, T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti. – Bakı: AMEA Tarix institutu, "Turxan NPB", 2020.
6. Roger D. Long, A history of Pakistan. Oxford University Press, 2015.
7. Шамприи, А. Индия – полная история страны. – Москва: Изд. АСТ, 2021.